İdmanla bağlı düşüncələr



Mobil İSMAYILOV

(əvvəli qəzetimizin 36-cı sayında)

# İdman və ədalət prinsipləri

> *İnsana xoşbəxtlik qapısını ədalət açır.*
> **Platon**














## Haqsızlıqla barışmayan və özünü təsdiq edən futbolçu

Müqavilə ilə "Qalatasaray" klubuna məxsus olan türk futbolçusu Ceyhun Eriş 1999-2002-ci illərdə icarəyə verilən komandalarda uğurlu oyun göstərirdi. Ancaq gənc, istedadlı futbolçu "Göztəpə" klubunda oynadığı dövrdə tibbi yoxlanışdan keçərkən gözlənilmədən ürəyində ritm pozğunluğu üzə çıxdı. Bu səbəbdən Ceyhun bəzi görüşlərdə yaxşı oyun sərgiləyir, bəzi oyunlarda isə özünə bənzəməyərək əvəzlənirdi. Bir qədər sonra keçirilən təkrar nəzarət yoxlaması da əvvəlki nəticəni təsdiq etdi. Bu məlumat məxsus olduğu komandaya çatan kimi, klubun rəhbərliyi futbolçu ilə yollarını ayırdı. Amma onun əlində sağlam olması barədə tibbi arayış var idi. 2003-cü ildə "Fənərbağça" komandasına keçəndə həmin arayışı kluba təqdim etdi. Eyni zamanda səhhətindəki narahatçılığı da gizlətmədi. Yeni klubunun rəhbərliyi dərhal futbolçunu "Acıbadəm" xəstəxanasına yerləşdirdi. Klubun göstərdiyi diqqət, həkimlərin qayğısı futbolçunun özünə inamını artırırdı. Qısa müddətli müalicədən sonra o, məşqlərə başladı. Evməşq, məşq-ev devizi ilə xüsusi rejimlə çalışan futbolçu tezliklə yaşıl meydanlara qayıtdı. Nəzarət testi onun sağlamlığının qaydasında olduğunu göstərdi. Beləliklə, idman formasını tam bərpa edən futbolçu komandasının heyətində Semihdən sonra ikinci ulduza çevrildi.

Sonradan Ceyhun Eriş belə hesab edirdi ki, istər "Qalatasaray", istərsə də heyətində parladığı "Göztəpə" komandaları onunla ədalətsiz davrandılar. Ona qarşı normal münasibət göstərilmədən tələsik müqavilələri pozdular. Nəinki səhhəti ilə maraqlanan olmadı, adicə dəstək belə hiss etmədi.

Bu epizod da insan taleyinə ədalətli yanaşmanın parlaq təzahürüdür.

## "Məsələnin obyektiv həllini tərəflərin vicdanına buraxırıq"

Dəfələrlə dünya çempionu olmuş rus biatlonçusu Maksim Çudov 2010-cu ildə Kanadanın Vankuver şəhərində keçirilən olimpiadada bürünc medal qazandıqdan sonra müsahibəsində bildirdi ki, 2006-cı ildə İtaliyanın Turin şəhərindəki olimpiada zamanı onun ətrafında qeyri-sağlam mühit yaradıldı və o, gərginliyə məruz qaldı. Hələ üstəlik estafet komanda yarışlarında milli komandaya daxil edilməsi üçün ondan pul istəmişdilər. İdmançı rüşvət tələb edənlərin adlarını çəkməsə də, bu sensasiyalı açıqlama böyük ajiotaj doğurdu. Turin olimpiadasında Çudov uğursuzluğa düçar olaraq, mükafatalayiq yer tuta bilməmişdi. Məşqçilər heyəti və federasiya rəsmiləri müsahibədə deyilən fikirləri tam inkar edərək biatlonçunun Turindəki uğursuzluğunu pərdələməkdən ötrü belə belə sözlər deməsini göstərdilər.

Rusiya biatlonçular ittifaqı bu məsələni araşdıraraq diqqəti çəkən bir bəyanatla çıxış etdi: "Tərəflərin fikirləri bir-birinə zidd olmaqla fərqlidir. İdmançı ondan rüşvət tələb edilməsinə dair məlumatı 4 il-dən sonra bildirir. Hazırda ədalətli qərar qəbul etmək mümkün deyildir. Ölkə idmanının şərəfindən söhbət getdiyinə görə toplanmış materialların istintaq orqanlarına verilməsini də məqsədəuyğun hesab etmirik. Tərəflərin heç biri ədalətin bərpası, şərəf və ləyaqətin qorunması üçün məhkəməyə müraciət etmək istəmir. Ona görə də məsələnin obyektiv həllini tərəflərin vicdanına buraxırıq".

## Məscidi bağlanmaqdan xilas edən fədakar

2019-cu ilin dekabrında İspaniyanın "Sevilya" futbol klubunun oyunçusu Kanute şəhərdəki məscidi bağlanmaqdan xilas etdi. Torpaq vergisini və digər borcları ödəyə bilmədiyinə görə Sevilya şəhər rəhbərliyi qərara gəlmişdi ki, məscidi bağlasın. Müsəlman olan Kanute 700 min dollar ödəyərək məscidin bağlanmasının qarşısını aldı. Ən önəmlisi isə Kanutenin efirdən səsləndirdiyi fikirlər oldu: "Məscidin yerləşdiyi ərazinin torpağı satışa çıxarılmışdı. Bu yolla məscidi bağlamaq istəyirdilər. Mən buna imkan vermədim. Atdığım bu addımı mənə görə futbolda qazandığım bütün titullardan üstün qiymətləndirirəm. Mənim gecə həyatım və başqa əyləncələrim yoxdur. İşim ancaq futbol oynamaqdır. Qazandığım pulları da halal zəhmətimlə əldə etmişəm. Məscidə görə ödədiyim pulların da hamısını yalnız futboldan əldə etdiyim gəlirlərdən ayırdım. Mən belə düşünürəm ki, burada xeyirxahlıqdan çox ədalətin qorunması həyata keçdi".

Mən də hesab edirəm ki, futbolçunun bu hərəkəti sadəcə xeyriyyə işi deyil. Onun əməli daha çox ləyaqət, vicdan rəmzidir.

## Almanların irqçi şüarlara sərt etirazı

2021-ci ilin iyulunda Tokio olimpiadası ərəfəsində Almaniya milli Olimpiya yığması ilə Honduras komandası arasında keçirilən yoldaşlıq oyununda da xoşagəlməz hadisə baş verdi. Hesab 1:1 olarkən, oyunun bitməsinə az qalmış honduraslılar Almaniya yığmasının qara dərili futbolçusu Cordan Torunariqaya qarşı irqçi şüarlar səsləndirdilər. Buna etiraz olaraq bütün Almaniya komandası meydanı tərk etdi və bir daha stadiona qayıtmadı. Bununla da heyət komanda yoldaşına dəstək, həmrəylik göstərdi. Təbii ki, sonradan Honduras rəsmiləri, yığmanın üzvləri Almaniya komandasından üzr istədilər. Bundan başqa əlavə ciddi tədbirlər də görüldü.

## Tennis dünyasında dopinqə qarşı münasibət

Sirr deyildir ki, bu gün dopinq preparatları idman dünyasına əməlli-başlı ayaq açıb. Belə vəziyyətin yaranması əslində halal-haram meyarlarının pozulmasına da gətirib çıxarmışdır. Təəssüf ki, bəzən çempionluq, adlar, yerlər, mükafatlar, titullar dopinqin "köməyi" sayəsində əldə edilir. İdmanda ən çox dopinq qəbul edilən idman növü tennis sayılır. Ehtimal olunur ki, bir çox məşhur tennisçilər turnirlərin keçirildiyi günlərdə dopinq qəbul edirlər. Peşəkar idmanda idmançıların bu işlə məşğul olmasını düşünmək belə az qala faciədir.

Təəssüf ki, bu həqiqətdi. "Tennis düşünüldüyü qədər də təmiz deyil", - deyə tanınmış raketka ustası Mark Vudvord etiraf etmişdi. Qeyd edək ki, avstraliyalı tennisçi dəfələrlə "Böyük dəbilqə" seriyasının qalibi olub. Bu xoşagəlməz söhbətlərə son qoymaq üçün xeyli vaxtdır ki, Avstraliyanın açıq çempionatlarında iştirak edən tennisçilərin qanından analiz götürülür. Eyni zamanda vaxtı ilə dünyanın sayılan tennisçilərindən biri olan Andre Aqassi də idmançıların dopinqdən istifadə etməsini təsdiq edərək, analiz qaydasının tətbiq olunmasını zəruri hesab etmişdir. Lakin məşhur tennisçi Marat Safin bu fikirlərlə razı deyil: "Dopinq tennisin əsas problemi deyil. Bəzi idmançıların preparatlar qəbul etməsini hamısının ayağına yazmaq olmaz. Mən yeri-yersiz analiz verilməsi qaydalarını dəstəkləmirəm. Əgər təşkilatçı ölkələr açıq çempionatları "xəstəxanalara" çevirmək istəyirlərsə, bu, əlavə problemlər yaradacaq". "Böyük dəbilqə"nin 20 qat qalibi, "tennis kralı" ləqəbli Roje Federer dopinq qalmaqallarından söhbət düşəndə deyir: "Mən şəxsən dopinq preparatları qəbul etmirəm. Amma başqalarını deyə bilmərəm. Analiz yoxlamalarını dəstəkləyirəm. Yalnız belə yoxlamaların vasitəsi ilə tennisçilərin qadağan olunmuş preparatlardan istifadə etmələrinin qarşısını almaq olar". Müasir dövrdə Beynəlxalq Tennis Federasiyası, Peşəkar Tennisçilər Assosiasiyası dopinqdən istifadənin qarşısını almaqdan ötrü daha effektiv tədbirlər həyata keçirməyi nəzərdə tutmuşdur.

Əlbəttə, dopinq geniş bir mövzunun söhbətidir və bu məsələyə geniş yer ayrılmasına zərurət görmürəm. Amma hər bir halda dopinqin ən azından həm də ədalət prinsiplərinə zidd olmasını xüsusi vurğulamağı lazım bilirəm.

## "Həyatda dürüst və ədalətli olmaq üçün hökmən vicdanın səsinə qulaq asmaq lazımdır"

Haqlı olaraq belə deyirlər ki, həyat - ən yaxşı müəllim və ən böyük məktəbdir. Həyatımıza daxil olmuş idmanda hər şey ədalətli olmalıdır. Ədalətsizliyə düçar olmuş insanlar kimi idmançılar da ən azı Allahın ədalətinə inanır. Əgər idmançı ədalətsizliyə məruz qalırsa, ruhdan düşməyə dəyməz. Onsuz da Allahın "ədalət" sifəti var. O mütləq zühur edəcək və haqq yerini tapacaqdır. Ən mükəmməl ədalət isə insanın öz vicdanıdır. Həyatda dürüst və ədalətli olmaq üçün hökmən vicdanın səsinə qulaq asmaq lazımdır. Bəzi insanlarda olduğu kimi elə idmançılarda da sanki ədalət hissi olmur. Onlar unudurlar ki, insanlığın meyarı ədalətdir.

Əsas məsələ təkcə özünü düşünmək deyil. Bu mənada Sietl paralimpiadasında baş vermiş bir hadisə çox ibrətamizdir.

... 9 əlil idmançı 100 metrlik məsafəyə qaçış üçün start xəttinə düzülmüşdü. Start verilən kimi hamı irəli atıldı. Nə qədər çətin olsa da, hər biri qalib gəlməkdə əzmli idilər. Yenicə başlamışdılar ki, idmançılardan biri büdrəyib yıxıldı və ağlamağa başladı. Qalan 8 idmançı oğlanın ağladığını eşitdi. Hamısı dayanıb arxaya baxdılar. Sonra geri qayıdıb oğlanın yanına gəldilər. Aralarında biri əyilib oğlanın üzündən öpdü və "bəlkə bu, kömək edər" - dedi. Daha sonra doqquzu da birlikdə qol-qola girib finiş xəttinə gəldilər. Stadionda hamı ayağa qalxıb onları alqışladı. Həmin günü orada olanlar hələ də bu hadisəni xatırlayırlar. Ona görə ki, bu həyatda əsas məsələ təkcə özünü yox, başqasını da düşünməyi bacarmaqdır.

Bu mənada daha bir təsirli hadisəni yada salmaq istəyirəm.

Elə bu il axırıncı Avropa çempionatında Danimarka yığmasının Finlandiyaya qarşı oyunu zamanı yerli futbolçu Eriksen qəflətən yerə yıxıldı və huşunu itirdi. Bütün stadion sükuta qərq oldu. Hamı çaşıb qaldı. Oyunda böyük fasilə yarandı. Xoşbəxtlikdən Eriksenin həyatını xilas etmək mümkün oldu. Stadionda diktor futbolçunun özünə gəlməsini və səhhətinin artıq təhlükəsiz olduğunu elan etdikdə, tribunadakı azarkeşlərin göz yaşlarını görməyi sözlə ifadə etmək çətin idi. Heç kim bu mənzərəyə biganə qalmamışdı. Hətta televiziya tamaşaçıları da... Hamı futbolçunun aqibətini düşünürdü. Oyun artıq unudulmuşdu. Avropa çempionatı bitənə qədər Eriksenin bu və ya digər formada xatırlanması davam etdi.

Viktor Hüqonun şərh etdiyimiz məsələlərə aidiyyəti olan müdrik bir fikri vardır: "Yaxşı görünmək, yaxşı insan kimi qəbul edilmək asandır. Ədalətli olmaq çətindir. Kamil insan üçün ən düzgün ədalət onun vicdanlı olmağıdır. Deməli, vicdanlı olmaq ən çətin işdir".

Gəlin, bu dəyərli ifadəni çalışaq ki, hər birimiz heç vaxt yaddan çıxarmayaq.